AZƏRBAYCAN RESPUBLİKASININ İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
ANTİİNHİSAR VƏ İSTEHLAK BAZARINA NƏZARƏT DÖVLƏT XİDMƏTİ

"AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU" PUBLİK HÜQUQİ ŞƏXS

# Ə M R № 202323400076

**Bakı şəhəri** «04» noyabr 2020-ci il

192323400039 nömrəli 06 dekabr
2019-cu il tarixli əmrə dəyişiklik

## Standartlaşdırma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin müəlliflik hüququnun qorunması və yayımı barədə

Azərbaycan Respublikasının 17 may 2019-cu il tarixli 1587-VQ nömrəli "Standartlaşdırma haqqında" Qanununa uyğun olaraq, Beynəlxalq Standartlaşdırma Təşkilatının (İSO) qaydaları, regional, xarici dövlətlərin və digər standartlaşdırma təşkilatları ilə bağlanmış sazişləri əsasında standartlaşma üzrə normativ sənədlərin rəsmi nəşrlərinin müəlliflik hüququnun qorunması prinsipi ilə yayımı məqsədilə və Azərbaycan Standartlaşdırma İnstitutu publik hüquqi şəxsin Nizamnaməsinin 2.3.1-ci, 4.2.2.2-ci və 4.2.2.4-cü bəndlərini rəhbər tutaraq

## ƏMR EDİRƏM

1. Azərbaycan Respublikasının dövlət standartlarının (AZS) rəsmi nəşrlərinin yayım dəyəri yeni tariflərlə Əlavə 1-də göstərilən cədvəl üzrə hesablansın.

2. İnstitutun 192323400039 nömrəli 06 dekabr 2019-cu il tarixli Əmrinin Əlavə 1-i qüvvədən düşmüş hesab edilsin.

3. Azərbaycan Standartlaşdırma İnstitutunun Tərcümə və nəşrlər mərkəzi normativ sənədlərin rəsmi nəşrlərinin çapını təşkil etsin və onların rəsmi nəşrlərinin yayımını bu əmrdən irəli gələn tariflər əsasında həyata keçirsin.

4. Standartlaşdırma sahəsində normativ sənədlərin rəsmi nəşrlərinin yayım dəyərləri barədə məlumat Tərcümə və nəşrlər mərkəzi tərəfindən İnstitutun rəsmi internet saytında (http://www.azstand.gov.az) yerləşdirilsin.

5. Bu Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Baş direktor** **Namiq Tağıyev**

AZƏRBAYCAN RESPUBLİKASI AZƏRBAYCAN STANDARTLAŞDIRMA İNSTİTUTU PUBLİK HÜQUQİ ŞƏXS AZƏRBAYCAN RESPUBLİKASI

Azərbaycan Standartlaşdırma İnstitutu
publik hüquqi şəxsin 04 noyabr 2020-ci il tarixli
202323400076 nömrəli Əmrinə Əlavə 1

**Azərbaycan Respublikasının dövlət standartlarının yayım dəyəri**

| **Tarif sinifi** | **Səhifə** | **Tarif (AZN)** |
|---|---|---|
| A | 1–6 | 21,62 |
| B | 7-12 | 33 |
| C | 13-18 | 50,07 |
| D | 19-26 | 67,13 |
| E | 27-35 | 78,51 |
| F | 36-50 | 89,89 |
| G | 51-80 | 101,27 |
| H | 81-... | 112,65 |